# Doğma ölkəmìzdə

## UNESCO-nun baş direktoru İrina Bokova Azərbaycan xalqını qədim Gəncə şəhərinin təməlinin qoyulmasının 4000 illik yubileyi münasibətilə təbrik etmişdir

UNESCO-nun baş direktoru İrina Bokova Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə müraciət ünvanlamışdır. İrina Bokova müraciətdə Azərbaycan xalqını qədim Gəncə şəhərinin təməlinin qoyulmasının 4000 illik yubileyi münasibətilə təbrik etmiş, qədim ipək yolunun qovşağında yerləşən bu şəhərin ticarət və mədəni mübadilə ilə dialoqların qurulmasında böyük rol oynadığını, Gəncəni uzun müddətdir UNESCO-nun ideyası olan dialoq və qarşılıqlı anlaşmanın əsasında duran bilik, elm və müxtəlif insanların tolerantlığının qovşağı kimi tanındığını qeyd etmişdir.

## Azərbaycanın maliyyə göstəriciləri bir çox ölkələr üçün nümunədir

Hazırda Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatları arasında rəqabət qabiliyyətliyinə görə 46-cı yerdədir. Eyni zamanda ölkənin bütün maliyyə göstəriciləri bir çox ölkə üçün nümunədir. İşsizlik 5,2, yoxsulluq 6 faizə enib. Strateji valyuta ehtiyatları ümumi daxili məhsulun 70 faizini, xarici dövlət borcu ümumi daxili məhsulun 7 faizini təşkil edir. Bir milyondan çox yeni iş yeri açılıb. Azərbaycan çoxsaylı və balanslaşdırılmış xarici siyasət yürüdərək özünü etibarlı tərəfdaş, həmçinin Xəzər-Qafqaz regionunda əməkdaşlıq üçün güclü, sabit və geniş anlayışda həlledici bir ölkə kimi tanınır.

## Bakıda VII Beynəlxalq türk mədəniyyəti, incəsənəti və mədəni irsin mühafizəsi simpoziumu keçirilmişdir

Bakıda keçirilən VII Beynəlxalq türk mədəniyyəti, incəsənəti və mədəni irsin mühafizəsi simpoziumu başa çatmışdır. Simpozium «Miras» Mədəni İrsin öyrənilməsinə Kömək İctimai Birliyi, Qafqaz Universitetinin Qafqaz Araşdırmaları İnstitutu, Türkiyənin Səlcuq Universiteti və Türk Əl Sənətləri Araşdırma və Tətbiqetmə Mərkəzi tərəfindən təşkil olunmuşdur. Beynəlxalq simpoziumunda Azərbaycan, Türkiyə, İtaliya, Rusiya, İran və digər ölkələrdən alim və mütəxəssislərin 150-dək məruzəsi dinlənilmiş və müzakirə edilmişdir. Tədbir türk dünyasında mədəni irsin araşdırılması, qorunması, təbliği, zəngin türk mədəniyyəti, incəsənəti, türk tarix və ədəbiyyatının dəyərləndirilməsi, türkdilli ölkələrdə mədəni və arxeoloji turizmin təbliği və digər mövzuları əhatə etmişdir.

**Nadir ATAKİŞİYEV.**



**Bu yol hava limanına aparır.**
*Foto Səhrab Umuyevindir.*

## Dünyanın ən uzun Qurani-Kərimi yazılır

İraqın Nəcəf şəhərində «Ginnesin Rekordlar kitabı»na düşmək məqsədi daşıyan, 4 xəttatdan ibarət qrup gün ərzində 15 saat işləyərək, dünyanın ən uzun Qurani-Kərim nüсxəsini yazmağa çalışır. Qrup İraq Mədəniyyət Nazirliyinin Əlyazması, Sənədləşmə və Mətbuat Komitəsi tabeliyində fəaliyyət göstərir. «Anadolu» agentliyinə açıqlama verən xəttat Hüseyn əl-Hərsan sözügedən Quranın uzunluğunun 5,5, eninin isə 1 metrə çatacağını söyləyib. Habelə o, rekord uzunluqda olacaq nüsxənin ərsəyə gəlməsi üçün 13 min metr uzunluğunda və çəkisi 9 tona çatan kağızdan istifadə edəcəyini vurğulayıb.

Əlyazması və bəzək kimi müxtəlif işləri öz aralarında bölüşdürdüklərini deyən Hərsan bir ildir ki, layihə üzərində işlədiklərini və hələlik nüsxənin üçdəbirini başa çatdırdıqlarını bildirib.

## QƏBƏLƏ RAYONU SAKİNLƏRİNİN NƏZƏRİNƏ

Cari ilin 12 iyul tarixində saat 11-00-da Azərbaycan Respublikasının Baş Prokuroru I dərəcəli dövlət ədliyyə müşaviri cənab Zakir Qaralovun Şəki rayon prokurorluğunun inzibati binasında Şəki, Qax, Qəbələ, Balakən, Oğuz və Zaqatala rayonlarında yaşayan vətəndaşların qəbulu keçiriləcəkdir.

Bununla əlaqədar rayon sakinləri məlumatlandırılır, qəbula gəlmək istəyən vətəndaşların Qəbələ rayon prokurorluğunda qeydiyyatı aparılır, habelə qəbulun keçiriləcəyi gün onların Şəki rayonuna getməsi üçün nəqliyyat vasitələri ayrılır.

**QƏBƏLƏ RAYON PROKURORLUĞU.**

## Oxucuların nəzərinə!

**«Qəbələ» qəzetinə 2013-cü ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

*Abunə «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və redaksiyada nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № 33080019444900218149. VÖEN 4400103601.*

Ünvan: Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.

Telefonlar: (024)20 5-19-14, 5-15-56, mob. (050) 328-11-42.

## Əzizim Tunar, sevincimizsən bizim



Dünyaya xoş gəldin, ey əziz Tunar,
Qəlbi günəş kimi saf, təmiz nəvəm.
Sənin bu gəlişin şad etdi bizi,
Göylərə ucaltdı hər birimizi.
Baldan da şirinsən, körpəsən hələ,
Yaşlara dolasan bu gündən belə.
Həyatda ən adlı insan olasan,
Gənclik yaşlarına gəlib dolasan.
Səninlə fəxr etsin atan Səxavət və anan Nərgiz,
Qayğını çəkərək oduna yanan
Təranə nənən də baxıb fəxr etsin,
Bir zaman toyunda o yallı getsin.
Heç vaxt çəkməyəsən kədər, qüssə, ah,
Üstündə nəzarət eyləsin Allah!

## ELAN

Qəbələ bələdiyyəsi tərəfindən 22.05.2007-ci il tarixli 05 №-li qərarla Laza kənd sakini **Rəhimov Neman Mirzərəhim oğlunun** adına verilmiş kod AN 007880 olan 0,06 ha torpaq sahəsinin kadastr planı **itdiyi üçün** etibarsız sayılır.


Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi N. R. Atakişiyev.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2070.